# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 12-13 (1092-1093) 23 - 30 mart 2022-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

# 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

# YADDAŞ YANĞISI

## (Yurd yeri düşüncələri)



*Əli Rza XƏLƏFLİ*

*(Əvvəli ötən sayımızda)*

*(poema-esse)*

Zabit qüruruna güvənən qeyrət,
Alınmaz, basılmaz vətən səngəri;
Adım Qarabağdır - deyən Vilayət,
Yenə də torpağın, yurdun əsgəri.

Oğullar adında hünər daşıyan,
Xələfli tarixdə dastana dönər;
Sözümdə, şeirimdə ömür yaşayan,
Hər adın özündə ürək döyünər.

* * *

Tayfalar, tirələr ad-ad olsa da,
Elin varlığında bir kişi vardı;
İndi yaddaşlarda izi qalsa da,
Bir zaman hökm edən gərdişi vardı.

Xələfli elinin yenilməz ruhu,
Bütövlük, böyüklük adı, ünvanı;
Xeyirlə gülərdi səhəri, sübhü,
Şərə qurulardı haqqın divanı.

Dar gündə, çətində eli bir olan,
Bu kənddə doğmalıq, simsarlıq vardı;
Şirin söhbətləri könüllər alan,
Nurlu kişiləri qada sovardı.

İndi bilirəm ki, nələr çəkirmiş,
Xaqani Şamaxı ayrılığından;
Bildim ki, bənövşə dərdi əkirmiş,
Dirili Qurbani sayruluğundan.

Xələfli, ey mənim sevimli yurdum,
Gəlmişəm, sən mənə Novruz payı ver;
Necə çərşənbədən halını sordum,
Bəs mənim halımı sənə kim deyər?

Sənin həsrətinlə od ayaqlayıb,
Gəlmişəm, eşqinlə vüsala çatam;
Adını, sanını son evim sayıb,
Dizinə baş qoyub əbədi yatam.

Hər cürə sifətlər - qaralar, ağlar,
İndi gözlərimin önündən keçir;
Qırılmış arzular, saralmış bağlar,
Yanmış xəyalların yönündən keçir.

Əli naxış vuran Maral nənənin,
Oğlu Xasayın da adı var olsun;
Əhdinə düz olub yolu gedənin,
Deyirəm bəxtinə tanrı yar olsun.

Alməmməd... səliqə, sahman adamı,
El içində hörmət-izzəti vardı;
Doğruya yozurdu sözünü hamı,
Yaxşıya yamana göydən baxardı.

İbiş əmioğlu Kamran əmim də,
Xələfli adına hörmət gətirdi;
Mənim ləpədöyən fikirlərimdə,
Hərəsi bir ümid, inam bitirdi.

Bayramı, Topuşu unudarmı söz,
Adları yazımda qoy kəlam olsun;
Şərifə bibinin sinəsində köz,
Yatdığı torpağa bir salam olsun.

Novruzov Xasayın cəngi-cidalı,
Həqiqət uğrunda savaş açardı;
İnadı keçərli, sözü sədalı,
Ruhu qanadlanıb göydə uçardı.

İndi Əzimin də, Ələkbərin də,
Yolları əslində ata istəyi;
Xələfli adına şad xəbərin də,
Payını göndərər ana dəstəyi.

Məmmədvəli, Sirac, Qiyasdan deyim,
Hələ qurtarmayan nağıl nə çoxlu;
Aydın təbiətən sakit, mülayim,
Yaddan çıxmaz İbiş Balaca oğlu.

Söz bilən İslamın özü, məzəsi,
Qəlbə toxtaq verər, könül açardı;
Yaman Məhəmmədin eldə gəzəsi,
Sözü qanadlanıb dildə uçardı.

Zal Əziz oğlunun dostuQüdrəti,
Anmasam, atamın ruhu nə deyər;
Sözüm unudarmı heç Ədaləti,
Yazmasam dil ağlar, ürək göynəyər.

Apardı Rəvanın şux qamətini,
Can alan, qəm verən bu dərd dükanı;
Mələkoğlu Səxavətin qəlbini,
Qanatdı həsrətin qara tikanı.

Hələ Muxtarla, Nəsiboğlu İsmayıl,
Dövrandan nə çəkdi Xələfli bilər;
Ruhuna əmanət qalan Mikayıl,
Oğlunun yoluyla yurduna gələr.

Dədə Günəşliyə əmanət olan,
Ağaclı Əbilin sorağı batmaz;
Qardaşı Qabilin yurdunda qalan,
Həzin xatirələr uyumaz, yatmaz.

Yurduna vəfalı Səlbi nənəmin,
Gözlərim axtarır qəbir yerini;
Mən sözə çəkirəm ötən dönəmin,
Sözünü, hökmünü, fikirlərini.

Sözü min bir dərdə dərman nənəmin,
Son evi Xələfli kəndində qalıb;
Əlləri şəfalı loğman nənəmin,
Özü yaddaşımın zəndində qalıb.

Hümbətalı yurdu, nəvələrinin,
Əlində, dilində ocaq yandırar;
Dönər oğulları... burda hərənin,
Qəlbində Məcnunluq bir dağ yandırar.

Xəlilin, Şəmilin getdiyi yola,
Boylanan yaddaşım "yaz" deyir mənə;
Ruhun şad olacaq, ay Sona xala,
Bunu təzə fəsil, yaz deyir mənə.

Hələ Məmmədalı Məhiyyəddin oğlu,
Ömrü başa vurdu köçkün günündə;
Fazilin, Nailin qəbirləri də,
Ayrı düşdü bəxtin dərd düyünündə.

Məmmədhəsən dayı, harda olsan da,
Məzarın ziyarət, ocaq yeridir;
Özün Quşçulara həsrət qalsan da,
Ruhun yurd üstündə yenə diridir.

Dostum Qəşəm ilə gəzdiyim yerlər,
Dərdli xatirələr danışdı mənə;
Bir zaman əlimi üzdüyüm yerlər,
Döndü gözlərimdə güllü çəmənə.

Qiyası, İdrisi sorana deyim,
Hərəsi bir yanda qəm evi qurdu;
Təzimə gül əkdim, dərdə baş əyim,
Yaddaş varlığımı göyə sovurdu.

Xəyalım dolandı. Quşçuları da,
Gəzdim bu yerləri ağrı, acımla;
Könlüm salamladı bu baharı da,
Ruhumda ac olan ehtiyacımla.

Tumas oğulları... var olun sizi,
Bu çətin yolları yaxşı keçdiniz;
Yaxşı tanıdınız cığırı, izi,
Yaxşını, yamanı düzgün seçdiniz.

Qeyrətli atanın saf oğulları,
Yaxşılıq adınız, ünvanınızdır;
Qeyrətdə, hünərdə Tumas hasarı,
Sizə şöhrət payı, ad-sanınızdır.

Açıqdır sözümün göyü, səması,
Özümə borc bildim dünya işini;
Zal Əziz oğlunun dostu, Tuması,
Hörmətlə yad etdim adlı kişini.

İmam Alıgillər nəsil ocağı,
Dağıldı, qorlandı hərə bir yana;
Axtarsan, tapılmaz ucu-bucağı,
Ayrılıq oduna od düşə, yana.

Eldə Nəsir oğlu İsmayıl bilən,
Seyid Nigaridən nişangah vardı;
Yüz ili yaddaşda yeriyib gələn,
Qar qışlaq çölündə gorugah vardı.

Əziz xələflilər, harda olsanız,
Yaddaşım axtarıb ad edər sizi;
Qələmdən, kağızdan düşüb qalsanız,
Qəlbim hərarətlə yad edər sizi.

Məndən hər nə qaldı... inciməyin siz,
Nəriman Mahmudun qələmi yazar;
Yuxuda açılmaz düyün görsəniz,
Yusif Dirilinin haqq sözü yozar.

Qəlbində yurdumun daşı göynəyən,
Hər dərdi, ağrını yazıya çəkdim;
İndi ürəyimin başı göynəyən,
Fikirlər çölünə, yazıya əkdim.

Yaddaş toxumudur əkdiyim mənim,
Bilirəm, bitəcək yəqin bir zaman;
Güllənər, açılar, fikir çəmənim,
Dağlar üzə gülər, çəkilər duman.

Bir gün sıralanıb yola düzələr,
Üzü Qarabağa ruhlar karvanı;
Xəyalın həsrəti bitər, üzülər,
Sevinər son evi məzarıstanı.

Xələfli kinosu... dərdli yaddaşla,
Dəyişər pərdələr vaxt axarında;
Qəlbimdə qəhərlə, gözümdə yaşla,
Gedirəm xəyalın cığırlarında.

Səməd əmimin də yuxarı başdan,
Sahmanlı yurd yeri, dam-daşı vardı;
Həzin xatirələr baxar yaddaşdan,
İndi duyğularım uçmuş divardır.

Mənim Səməd əmim, sözü açıqdır,
Qəlbində olanı dilə çəkəndi;
Bir gün də bir qəza önünə çıxdı,
Fələk dərd böyüdən, kədər əkəndi.

Gülərüz qadını Gövhər bibimlə,
Beş qız, üç oğulu böyütmüşdülər;
İndi misralara dolan təbimlə,
Dilim bibimə də rəhmətlər dilər.

Yaşasif kölgəli çinar ağacı,
Təmkində görkünə kimin sözü var;
Danışsa dilindən çıxmaz bir acı,
Qəlbindən pay olar şirin arzular.

Vaqifin, Vüqarın hərəsi bir tağ,
Bir ata bostanı, bar-bəhərlidir;
Gülən könüllərdə yanan hər ocaq,
İnam ateşlidir, nur səhərlidir.

*(Davamı 8-ci səhifədə)*

# YADDAŞ YANĞISI

## (Yurd yeri düşüncələri)

(Əvvəli 1-ci səhifədə)

Ağıllı övladlar, hərəsi bir ev,
Hərəsi bir aləm, ocaq başıdır;
Halallıq yolunda qurulan pir ev,
Əbədi yaşayan yurd yaddaşıdır.

Ha yazam, ha yozam Cəfərsiz ötməz,
Hər sözü-söhbəti könül açandır;
Qəlbimdə yurd salıb əbədi, getməz,
Xələfli yurd yeri, Cəfərlər candır.

Afərin, Rabilin ayaq izləri,
Yaşayır cəbhənin səngərlərində;
Qanlı savaşlarda təpər dizləri,
Titrəmədi bir gün Ələsgərin də.

Vətən sevdalısı Cəfər kişinin,
Adına dastanlar, öygülər düşür;
Zamanın pis üzü, pis gərdişinin,
Küləyi üstündən keçir, ötüşür.

Tanrı bir möhləti pay görsün ona,
Aparsın yurduna yaddaş kitabı;
Yaddaş bağçasında gülü solana,
Qaytarsın adbaad bu daş kitabı.

Şirvanlı güneyi, qaya adamlar,
Qar kürkə bürünüb, bahar gözləyir;
Uçuq ev-eşiklər, xaraba damlar,
Üzünə açılan qollar gözləyir.

Burda qaya dostum, bir daş qardaşım,
Gördüm ki, yolumun üstə dayanıb,
Uşaqlıq çağında dostum, sirdaşım,
Bəlkə nəfəsimi duyub, oyanıb.

Gəlirəm yaxına, əl vurum daşa,
Qarlı yaşmağını çəkim üzündən;
Bəlkə tanımadı baxıb bu yaşa,
İzn ver, əyilim, öpüm gözündən.

Axı məndən ötrü bu qaya adam,
Yayda kölgəlikdi, qışda daldalıq;
Sifayi bir daşdı, bu saya adam,
Di gəl ki, qəlbimə bir ev, odalıq.

Qaya parçalandı, daş daşı yedi,
Qaranəfəs xəbər yolumu kəsdi;
"Şair nə yatmısan, bir oyan" dedi,
Bir acı rüzgar da üstümdən əsdi.

Qədimalının da qızı Şəlalə,
Şəmkirdə göz yumdu acı dünyaya;
Bir ana qəlbindən çağlayan nalə,
Soraqdı ağrının tacı dünyaya.

Bu kədər məclisi bir yara vurdu,
Sinəmdə göynəyən yaranın üstə;
Qaralıq... Qarabağ... dərdi sovurdu,
Daha rəng qalmadı qaranın üstə.

Dostum Qədimalı kədərlə dindi,
Hər sözü qəlbimin qəm əhvalıdır;
Neyləyək, nə deyək dövrana indi,
Bu tale işidir, bəxt yığvalıdır.

Ağsaqqallıq yolu - ata yoludur,
Sarını təmkində, səbirdə saxlar;
Bu dərd Qarabağın buta yoludur,
Hərəni bir küncdə, bucaqda haqlar.

Bir ömür də belə söndü, qaraldı,
Bir ümid də belə yurda yetmədi;
Bir ana qəlbində dilək saraldı,
Bəxtini ulayan qurda yetmədi.

Burda sükutumun özü dillənir,
Yenə dözüm dili təskinlik verər;
Dostumun gözündən dərdi sellənir,
Hər kəs bu qismətdən qəm gülü dərər.

Xələfli yolunun üstündə durdum,
Gəl gedək, o yurdda qəm daşıyıq biz;
Ay dostum, sözümlə dərd evi qurdum,
Neyləyək, bu yolun yoldaşıyıq biz.

Cəlaləddin Rumi adından gələn,
Bu yerdə bir hikmət məni çağırır;
Rumi ki söylədin qəziyyə bilən,
Deyər ki, ac quşdur, dəni çağırır.

Göz yaşım, asta ax, bir asta çağla,
Mənim dərd xəzinəm çoxdan da çoxdur;
Ey şam, bir yavaş yan, ahəstə dağla,
Görürsən ki, sübhdən xəbər də yoxdur.

Bir dövrana gəlmişik ki, nə deyim,
Sirdaşı yox bir kimsənin, tənhadır;
Həyat özü görk eləyir, qəm yeyim,
Dostu olmaz pir kimsənin, tənhadır.

Kamil Allahyarlı göndərən sözdür,
Bişdi söz kürəmdə ac quşdan ötrü;
Bilənə dəyəri ocaqdır, közdür,
Bilməyənə yazdım bir daşdan ötrü.

* * *

Aşağı Xələfli - Diri ətəyi,
Bir vaxt qucaq açdı könül dünyama;
Könlümün həvəsi, ruhun istəyi,
Burda güzgü tutdu Araz aynama.

Mənim Sədət əmim Diriyə köçüb,
Bəxtini bu yerə, yurda bağladı;
Məktəbdə direktor... xəyallar uçub,
İndi o yerləri daş-daş ağladı.

Ömrüm çiçək-çiçək yolda solsa da,
Aran Xələflidən, Diridən keçdi;
İstəyim sakitlik, dinclik olsa da,
Taleyim tufanlı yolları seçdi.

Qurbani yurdunu, Qız qalasını,
Gəzirəm xəyalın quş qanadında;
Ömrün payızında yaz qalasını,
Qururam sözümün köz inadında.

Başımın üstündən ötən durnalar,
Mənə həsrət payı, lələk göndərər;
Hər lələk söz olar, yaddaşda qalar,
Gələn zamanlara dilək göndərər.

O tayda dəvələr dərd qatarında,
Ruhumdan Təbrizə ün apardı;
Bu tayda qatarlar vaxt axarında,
Ömrümdən bac alar, gün qopardı.

İllər ayrısına döndüm o yerdən,
Zaman sərhəd çəkdi, yollar bağlandı;
Bilirəm, boğuldu dərddən, qəhərdən,
Dağlar da qəlbimdə yandı, dağlandı.

Suvad dərəsindən keçib baxıram,
Qədim yurd yeriydi Diri qışlağı;
Bulud gözlərimdən şimşək çaxıram,
Ağlayan görürəm Narlı bulağı.

Qalxıb Göy Cəbəni, aşdım Səngəri,
Yanğıma su verdim Küm dərəsində;
Yaddaşın bu yerdə yolu, ləngəri,
Durdu nəfəs aldı Qurd bərəsində.

Ovçu Mustafanın, dayım Muğanın,
Bura ov yeriydi, ovlaq yeriydi;
Dədə Qurbanidən gələn zamanın,
Yaşayan ocağı, qalan piriydi.

Hüseynalı xanın böyük düzünə,
Məşi Mahmudoğlu bostan əkərdi;
Seyid Alı yurdu... qışlaq üzünə,
Nə bileydik düşmən dağlar çəkərdi.

Qayalar yol verir, yeri, gəl deyir,
Nə qalıb Şeflidən Mazan nənəyə;
Bu da Ballı qaya, istək bal yeyir,
Vüsal şirinliyi çəkir sinəyə.

Hanı Şirə daşı, yağı sındırıb,
Min illik tarixin əmanətini;
Yağı əllərinin odu yandırıb,
Qocaman dağların əzəmətini.

Mənim Mazan nənəm, ocağın hanı,
Sənə kimlər qıydı, dağıtdı, sökdü;
Quruyan bulağın çinar həyanı,
Dərdinə dözməyən qüruru çökdü.

Dolaşır misralar, qarışır bəndlər,
Güllü qafiyələr solur sözümdə;
Dağılan obalar, sozalan kəndlər,
Dədəm Xudafərin ağlar gözümdə.

Ağaverdi oğlu babam Rəhimin,
Son evini gözüm gəzir, axtarır;
Açıb yaxasını zamanın, dəmin,
Xəyalım həsrətin bağrını yarır.

Xudayar yüzbaşı, Fərəc yüzbaşı,
Əmənulla ağa, oyanın, baxın;
Xaraba yurdların ocağı, daşı,
Ruhların qanına boyanın, baxın.

Fərəcoğlu Əziz adlı kişiydi,
Nəslini yaşadan övladları var;
Muxtar dayım kəndin zəhmətkeşiydi,
İndi adlarını yağışlar yuyar.

Yaddaşımın günü ötür, saralır,
Dağların kölgəsi dərələr keçir,
Bu yerdə sözümün vaxtı daralır,
Fikirlər dolanır, bərələr keçir.

Burda Xudayarlı qışlağı vardı,
Aşdı kitab-kitab dərd məni gəzdi;
Yel əsdi, sel yudu, zaman apardı,
İndi qalan sözdü, pozulmuş izdi.

Hələ Həbi kişi şəhid babası,
Nəvəsi Elçinin oğlu Elçin var;
Xarabadı yurdu, eli, obası,
Hələ yazılası dərdlər çin-çin var.

Xəyalım dolanır, fikir qaşında,
Qayıdır kənd üstə, mağar toyuna;
Bacıxanım nənə doxsan yaşında,
Şabaşlar səpilir onun boyuna.

Fərhad xalaoğlu, Süleyman qohum,
Adının-sanınız axar-baxardı;
İlan yolu keçir, qıvrılır ruhum,
Kəndin çal-çağırlı günləri vardı.

Fikrət Süleymanın alim oğluydu,
Ölümü Dirinin dağına döndü;
Bir vaxtsız əcəlin qəzası tutdu,
Neçə arzuların çırağı söndü.

Son evi qürbətdə qalan doğmalar,
Doğma yurda dönər ruhlarınız da;
Sağalar yaralar, bitər yağmalar,
Qayıdar yaddaşda qübarınız da.

Şahalı, Səyavuş, Aşıq Hüseyn,
Müseyib, Ramazan halal adamlar;
Harda adı gəlsə Səttarla öyün,
Çağırsan adları, dinər bu damlar.

Bu yerdə Nurəddin həkimin adı,
Qələmdən iznsiz söz alır məndən;
Vətən çoxlarını darda sınadı,
Çoxları yaddaşda itdi dünəndən.

Birinci Qarabağ savaşı... yandı,
Dağlar zaman-zaman oda büründü;
Arzular, istəklər qana boyandı,
Torpaq can dilləndi, vətən süründü.

Nurəddin həkimin döyüş yolları,
Ağdamda, Murovda izini saxlar;
Şəhid oğulların açıq qolları,
Həkim yaddaşında sözünü saxlar.

Yaralı bir əsgər baxıb qanına,
Sən mənim yaramı sarıma deyir;
Məlhəmi çəkərsən vətən canına,
Bu da son sözləri, başını əyir.

Oğulsan tab gətir ağrıya, dərdə,
Yaralı əsgərin sözü gözləyir;
Nurəddin həkim də baxıb o mərdə,
Gözlərindən axan yaşı gizləyir.

Mən həkim dostumun döyüş yolunu,
Sözümə gətirdim muraz üstündə;
Bu dərdli vətənin həkim oğlunu,
Gözləyim oxşayar Araz üstündə.

Yenə də güllənir yaddaş bağları,
Hər söz ayaq tuta, gələ, yeriyə;
Nurəddin həkimi Diri dağları,
Gözləyir yol ala, dönə Diriyə.

Bizim Əmrullanın, Əşrəfin adı,
Yaqubun sözü də, ərkin gözləyir;
Bu yerin, torpağın yaddaşı, yadı,
Hələ zaman-zaman dərkin gözləyir.

Sədət müəllimin, Abduləlinin,
Bağları bülbüllər çal-çağırıydı;
Atəşin, Heydərin... bir sözlə, elin,
Hər sözü dastanın bir varağıydı.

Bayram Əziz oğlu Xudayarlının,
Fəxri, qürurudu, hörmətdə adda,
Məşi Mahmudoğlu... bağı barlının,
Qalır xatirəsi yaddaşda, yadda.

Hələ Sədaqətdən danışsam əgər,
Onun ağrısını mən necə yazım;
Qardaşın, bacının dərdini çəkər,
Qəm üstə köklənir səsim, avazım.

Möhübbəddin vardı... sözü hünərli,
Nizaməddin özü təmkin dağıydı;
Balakişi bərkdə dizi təpərli,
"Şeçe" Məhəmmədin yaxşı çağıydı.

Usub oğulları Bahadur, Fehruz,
Qızıllıq adını saxlayırdılar;
Cahangir dayının oğlu Fazilin,
Yurdunda daşlar da ağlayırdılar.

Əmir oğlu Famil, oğlu Kazımın,
Yerinə-yurduna baxa bilmirəm,
Müdrik Şirin kişi... burda yazımın,
Selinə qarışıb axa bilmirəm.

Aşıq Surxay yurdu, Sərxanın evi,
Dayım Rəşidin də yurdu yox olub.
Budurmu bir elin sonu, görəvi,
Niyə ulamadı, qurdu yox olub?

Sözün bu yerində dağlar deyir ki,
Ənvər Çingiz oğlu yaddan çıxmasın;
Bənövşəli kollar boyun əyir ki,
Sözüm ətir alsın, daddan çıxmasın.

Hər sözü dağlardan dərilmiş çiçək,
Dillənsə ruhunda qada sovandır;
Əzizlə, tutya bil, varlığına çək,
Hər kəlmə yurd yeri, addır, ünvandır.

Gəlsə, axın-axın sirlər üstünə,
Ənvərin sözünü açar bil, açar;
Getsən, bir ocağa, pirlər üstünə,
Hikməti üstünə işıq, nur saçar.

Mənalar səyyahı gəlsə mülkünə,
Gözləri qaralar sərhədlərində;
Bir nəzər yetirsə zəhmət görkünə,
Görər ki, nələr var hər əsərində.

(Davamı 9-cu səhifədə)

*(Əvvəli 8-ci səhifədə)*

**"Yük üstü çadırlı" Xudayarlının,**
**Keçmişi danışar macqal dilində;**
**"Yük altı qatırlı" Xudayarlının,**
**Tarixi bəzənər sözün gülündə.**

**Dirili Surxayın sazı, cürəsi,**
**Ənvərin ruhunda ozan səsidir;**
**Diri dağlarının dərdi, çarəsi,**
**Onun öz eşqidir, öz nəfəsidir.**

**"Qarabağın aran ağzı - Arazbar",**
**Gülləndi düz "Sözün nübar çağından";**
**"Qarşı yatan Qaradağ"da hər bahar,**
**Bizə qol göndərər öz ocağından.**

**Onu Diri doğdu, Araz böyütdü,**
**Mayası yoğrulan zəhmət təridir;**
**Ömür dəyirmanı zaman üyüdür,**
**Vaxtın bərəkəti əsərləridir.**

Bizim memar Rizvan sevgisi ilə,
"Aydınlıq içində" söz yolu tutdu;
Qədim "Muğanlılar", "Avşarlar" belə,
"Qəlbin harayı"nda düz yolu tutdu.

"Qarabağ xanlığı", "Şuşa şəhəri",
Dirildi Ənvərin səltənətində;
Cavanşir mahalı açdı səhəri,
Boy verdi zəhmətin söz sənətində.

Məhərrəm müəllim ağıllı, müdrik,
Sözün doğrusunu nizama çəkər;
Bir gün deyə-gülə yurda dönərik,
Yağı niyyətləri əyilər, çökər.

Müzəffərin, İsmixanın, Əlinin,
Şalayın adını çəkməsəm olmaz,
Xələflinin, Xudayarlı elinin,
Birlik sarayını tikməsəm olmaz.

Allahverdi, Xalıqverdi, Telmanlar,
Hərəsi bir yanda didərgin oldu;
Yurdu itmiş kəndi gəzir gümanlar,
Güllü xatirələr saraldı, soldu.

Məhəmmədin, Etizarın, Əbilin,
Qəbirləri vətən boyu dağıldı.
Mikayılın oğlu - dostum Zahidin,
Oğul dərdi sinəsində dağ oldu.

Cəmilin, Əşrəfin, Kamalın közü,
Fəxrinin adına nə deyim, yazım;
Cavan ömürlərin söhbəti, sözü,
Mənim qəm sazımdı, kədər avazım.

Dilavuzun oğlu gənc Firdovsi də,
Qaya uçqununda... yeri də qaldı;
İslamı aparan bəxtin səsi də,
Diri dağlarında Diridə qaldı.

İzzət oğlu Telman oğullarının,
Çıraqları söndü Muğan çölündə;
Fehruz oğlu Əlpanahın, Tehranın,
Adları qərq oldu kədər gölündə.

Əli oğlu Nüsrət gənclik çağını,
Yaşadı Arazın Diri üzündə;
Amansız fələk də oğul dağını,
Çəkdi sinəsinə Muğan düzündə.

Burda gənclər vardı diləkləri saf,
Hər biri bir yurdun, elin dayağı;
Qəlbləri aynaydı, sulardan şəffaf,
Coşub çağlayardı çaylar sayağı.

Vilayət hərbiçi, Nurəddin həkim,
Mirzə də uçaqçı - göy üzündəydi;
Bu kənddə insanlıq, adamlıq hakim,
Vicdan tərəzinin sağ gözündəydi.

Sadət oğlu Sərvər şirindilliydi,
Yalanı doğruya calaq edərdi;
Sözü danışığı səliqəliydi,
Məclislər başında dil-dil ötərdi.

Həsrət dalğaları aramsız döyüb,
Ürək qəzasında bir gün apardı;
Beləcə, Sərvəri qayğılar oyub,
Onu doğmalardan çəkib qopardı.

Zülfü nənəmin də sözü, söhbəti,
Dilimdə yaşayan bir şirin daddır;
Beyləqan... Cərcisdə məzar qürbəti,
Uzaq yaddaşlara dərddir, fəryaddır.

Məclis adamıydı Zülfü nənəm də,
Özünü yığnaqda, üzdə görərdi;
Mənim söz ovdanım, şeir binəm də,
Nənəmin adını sözdə görərdi.

Zərnişan bibimin oğul dərdini,
Nənəm də daşıdı illər uzunu;
O bəxtsiz Hafizin acı dərd ünü,
Sındırdı qəlbimdə sözün buzunu.

Bir qiblə bilirdi Nənəm Sadəti,
Oğlunu hamıdan üstün tutardı;
Əmim harda olsa, onun adəti,
Baş qoyub oğluna sarı yatardı.

Mənim Sadət əmim yaxşı, yamanı,
Vaxtında anlayan, duyub-biləndi;
Neçə oğlu qızı, onun gümanı,
Bəxtə gah ağlayan, gah da güləndi.

Məktəb direktoru Sadət əmimin,
Varlığı hər kəsə güman yeriydi;
Kədər dalğaları döyən gəmimin,
Əmimin sahili uman yeriydi.

Əfsərdə itilik, Nofəldə cəldlik,
Hərəsi əmimdən bir pay daşıyır;
Həyat yollarında igidlik, mərdlik,
Nəsildən-nəsilə ötür, yaşayır.

Zabit libasını hünərlə geyən,
Şəhid oğlu Elçin igid əsgərdir;
İgid oğullsarı tanıyan, öyən,
Hər sözüm dastanda özü səngərdir.

Bəhmənlə Cəmilə, Arzuman, Qara,
Qəlbimdə doğmalıq sarayı qurub;
Xurma da Həbiblə bizim diyara,
Sevgi xalısında naxışlar vurub.

Gözəl Dilarə də Diri dağına,
Heydər ocağının bir baharıdır;
Özü də Qiyasla ömür bağına,
Bağbanlıq eşqinin tacidarıdır.

Qəlbimin odunda sözün kürəsi,
Yanıb atəşlərdə mənalar dərsin;
Hər sözün ovxarda yanı, yörəsi,
Döyüş meydanında bir sinə gərsin.

Bizdən gedənləri hörmətlə andım,
Sözüm qalanlara bir salam olsun;
Diri dağlarına sədaqət andım,
Dillərdə söylənən pir kəlam olsun.

Bircə diləyim var bu həsrət bitsə,
Dostum Heydərin də ruhu sevinər;
Həsrət tufanları axıra yetsə,
Həyat gəmimizin Nuhu sevinər.

Yol aldım babamın yurduna sarı,
Rəhim babamı da görmək istədim;
Dağılıb çəpəri, çöküb hasarı,
Uçmuş yaddaşımı hörmək istədim.

Babamı dərd əyib, qəmləri udub,
Danışır səssizlik, bu nə hənirdi;
Titrək barmaqları siqaret tutub,
Elə bil varlığı tüstülənirdi.

Mən dədə deyirdim Rəhim babaya,
Çağırdım, ay dədə, bir söz de, dillən;
Nə deyim dilindən elə, obaya,
Dedi, əvəzimdən sözündə güllən.

Babamın ruhunu səsim oyatdı,
Danışdı mənimlə bu divar, bu daş;
Gördüm ocaq sönür, gün batabatdı,
Qaralır xatirə, közərir yaddaş.

Quruyub bulaqlar, bozarıb daşlar,
Dayanıb baxıram yaddaş dağına;
Qaradağ, Qarabağ... yanır qardaşlar,
Gözlərim su verir tale bağına.

İndi də gəlirəm öz viranəmə,
Burda ev tikmişdim, ağac əkmişdim,
Burda istəkləri çəkib sinəmə,
Burda bostanıma çəpər çəkmişdim.

Burda gül bağçası, bülbüllər bağı,
Yanır yaddaşımda həsrətin dadı,
İndi bar gətirib dərdin budağı,
Acısı, şirini varlığımdadı.

Ay Anar, ay Araz, gəlin, bostanda,
Bar-bəhər gör necə aşıb-daşıbdı;
Qızım Şəmsiyyə də bu gülüstanda,
Donub qızılgülə, güllər çaşıbdı.

Ay Əntiqə xanım, bir hay versənə,
Ləklər su istəyir, gölü aç gəlsin;
Tutdan, gilənardan gəlib dərsənə,
Yeyən babaların gözləri gülsün.

## *(Yurd yeri düşüncələri)*

# YADDAŞ YANĞISI



Lökbatan... məzarlıq... dərd evi yaxan,
Hərə bir hücrəyə sahibdir burda;
Sədət müəllimdir, Sərvərdir baxan,
Şanxanım bibi də sakin bu yurda.
Əmimin ruhuna təskinlik olan,

Misralar qəmimlə yoğrulub gəlir;
Deyirəm son anda torpağa qalan,
Hər kəs bir tərəfə daş olub gəlir.

Əmimlə bir yerdə yollar keçmişəm,
Hər yanda qəlbimə həyan olardı;
Ömür tarlasında günlər biçmişəm,
Hər zaman ruhumu duyan olardı.

Taleyi bir roman dostum Heydərin,
Həyatını yazsam, kitab bağlanar;
Hər ömrün çəkdiyi dərdin, kədərin,
Göynəmi yazılsa, ürək dağlanar.

Şəhid oğlu nəvəsinə ruh verib,
Böyütdü eşq ilə öz ocağında;
Heydər həyatından iztirab dərib,
İnam bitirmişdi ümid dağında.

Xanımı Sənəmlə üç qız övladı,
Ağılda, kamalda başa çatdırdı;
Çəkdiyi zəhmətlər hörməti, adı,
Neçə fidanları yaşa çatdırdı.

Qonaqlı-qaralı evin yerində,
Kövrək xatirələr saçını yolur;
Küləklər dağıtmış çal-çəpərində,
İllərin acısı... gözlərim dolur.

İndi məni görüb sevinər yəqin,
Pilləkən üstündə əyləşən babam;
Susmuş samovar da dillənər yəqin,
Deyər, Güllü nənə, ay elim, obam.

Adına qurbanam, Əlirza sənin,
Bu uzaq yolları necə gəlmisən;
Qolu bağlanaydı yolu kəsənin,
Gözlərdən yayınıb gecə gəlmisən?!

Fəridə, Nuridə, hardasınız bəs,
Qağanız yol gəlib bayıra çıxın;
Ruhumda toy qurur bu səs, bu həvəs,
Dönür misralara söz yığın-yığın.

Hanı Rəhim babam... evi xaraba,
Bostanı Uradı, solub çəməni,
Hanı ev yiyəsi, ay el, ay oba,
Gəldim, baba yurdu, qarşıla məni.

Yadıma düşdükcə odlanır sinə,
Çiçəkli ocaqdan közlər dərirəm,
Sevimli günlərin sevgilisinə,
İndi yaddaşımdan sözlər dərirəm.

Yaşadıq eşq ilə ömürü, günü,
Qəlbimiz qızındı sevgi odunda,
Duyduq bir baxışdan harayı, ünü,
Könlümüz nə deyir sevgi ladında.

Taxtımız, tacımız çox ucadaydı,
Çoxları həsədlə baxardı bizə;
Eşqimiz tanrıdan bir halal paydı,
Qış da yol tapmadı yaz könlümüzə.

Fikirlər gül açmaz, sözün də gülməz,
Diləklər qəlbində saralıb-solsa;
Zaman dəyirmanı üyüdə bilməz,
Sinəndə sevgili ürəyin olsa.

Ayrılıram səndən Diri dağları,
Səsimi, sözümü saxla yadında;
Gəzdim yaddaşımla ötən çağları,
Qaya harayında, daş fəryadında.

*2022*